# GƏNCLƏR ÜÇÜN PREZİDENT MÜKAFATÇILARI

*Rüstəm Əzimov:*

## "Prezidentin mükafatı mənim üçün motivasiya mənbəyidir"



"Bütün bu elmi məhsuldarlığın nəticəsi olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məni elm üzrə Gənclər üçün Prezident mükafatına layiq görməsi böyük şərəfdir".

Xəbər verdiyimiz kimi, ötən gün bir qrup şəxsə Prezident İlham Əliyevin sərəncamı ilə Gənclər üçün Prezident mükafatları verilib. "Azərbaycan müəllimi" həmin gənclərdən birinin, doktorant Rüstəm Əzimovun təəssüratını öyrənib.

O, 4 ildir ki, Elm və Təhsil Nazirliyinin İdarəetmə Sistemləri İnstitutunda elmi-tədqiqatla məşğul olur. Həmsöhbətimiz magistratura və doktorantura təhsilini də burada başa vurub: "Nəticələrimi "EuroScience" və "Scopus" jurnallarında çap etdirmişəm. Təhsil dövründə dissertasiya işimi tamamladım, yaxın zamanda müdafiə etdim və sənədlərimi artıq bir aydan çoxdur ki, Ali Attestasiya Komissiyasına göndərmişəm", - deyə o əlavə edib.

Gənc tədqiqatçı elmi fəaliyyətə başlaması barədə danışaraq qeyd edib ki, dünyada həlli məlum olmayan məsələləri çözmək üçün elmi metodlara ehtiyac var. Kimlərsə laboratoriyalarda elmi-tədqiqat aparıb, məlum suallara cavab axtarırsa, mən də sualı məlum olmayan problemlərə cavab tapmaq istəyirdim: "Mən elmi-tədqiqat fəaliyyətimə bu motivasiya ilə başlamışam və bu gün çox şad bir xəbər aldım: Azərbaycan Respublikası Prezidentinin Gənclər mükafatına layiq görülmüşəm. Doğrusu, biz elmi-tədqiqatçılar adətən özümüzə maraqlı olan suallara cavab axtarırıq. Amma görürsən ki, o suallar başqalarına da maraqlı olur və beləliklə, dünya inkişaf edir. Mən də hesab edirəm ki, dünyanın inkişafında elmi tədqiqatçılar ciddi bir yer tuturlar".

Həmsöhbətimiz 4 ilə yaxındır ki, süni intellektin elmi müstəvidə tədqiqi ilə məşğul olur: "Həm şəkillər, həm də mətnlər üzərində süni intellektin tətbiqi ilə bağlı tədqiqatlar aparmışam. Bu sahədə ondan çox yerli və beynəlxalq konfransda çıxış etmişəm və indiyədək 22-yə qədər elmi məqaləm dərc olunub".

Rüstəm Əzimov Gənclər mükafatına layiq görülməyini bir gənc tədqiqatçı olaraq özü üçün böyük nailiyyət hesab edir.

Onun sözlərinə görə, bu uğurun arxasında kollektiv əmək dayanır: "Hesab edirəm ki, bu uğurun əsas dayaqlarından biri Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin idarəetmə sistemlərində çalışan hər bir həmkarımdır. Hər dəfə bir sualım və ya çətinliyim olduqda, onlara müraciət etmişəm və hər dəfə dəstək görmüşəm. Onlar təcrübələrini mənimlə səmimi şəkildə bölüşüblər. Laboratoriyadakı müzakirələr, təcrübə və bilik mübadiləsi mənim uğurlarımın bünövrəsini təşkil etdi. Məhz bu kollektiv dəstək və əməkdaşlıq sayəsində bu qədər elmi iş ortaya çıxdı".

Sonda o öz minnətdarlığını belə ifadə edib: "Bu mükafat mənim üçün həm böyük bir məsuliyyət, həm də dərin bir motivasiya mənbəyidir. Biz alimlər qapalı laboratoriyalarda oturub, suallara cavab axtarır, kitablar oxuyur, eksperimentlər aparır və nəticələrimizi bölüşürük. Amma kənardan belə bir stimul gördükdə, işimizin dəyərləndirildiyini hiss etdikdə, bu, çəkdiyimiz zəhmətə verilən ən gözəl qiymətdir. Mənə bu şərəfi bəxş edən Prezident İlham Əliyevə və bu prosesdə mənimlə birlikdə olan hər kəsə dərin minnətdarlığımı bildirirəm".

**Yetər KƏRİMLİ**

*Nihat Abdullayev:*

## "Fəaliyyətimizin təqdir edilməsi bizi gələcəyə daha da ruhlandırır"



"Prezident tərəfindən belə bir mükafata layiq görülmək böyük qürur hissidir. Dövlət başçısının etimadı, texnologiya, süni intellekt və sahibkarlıq fəaliyyətimizi təqdir etməsi bizi gələcəyə daha da ruhlandırır və ölkəmizi beynəlxalq arenalarda daha yüksək səviyyədə təmsil etməyimizə güc verir. Möhtərəm Prezidentimizə bizə göstərdiyi etimada görə təşəkkür edir, bundan sonra da texnoloji layihələrimiz, hazırda üzərində çalışdığımız süni intellekt əsaslı, ağıllı oyuncaq layihəsi olan "SamSam"la bayrağımızı zirvələrə qaldırmağa tam güclə çalışacağıq".

Qeyd edək ki, Nihat Abdullayev 2003-cü ildə Cəlilabad rayonunda doğulub. 2009-cu ildə rayonun Nizami Gəncəvi adına 1 nömrəli tam orta məktəbində 1-ci sinfə gedib. 2015-ci ildən təhsilini Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov adına Biləsuvar Bağça-məktəb-lisey kompleksində davam etdirib. 2020-ci ildə ADA Universitetinə qəbul olub. Hazırda həmin universitetin 5-ci kursunda təhsil alır. Azərbaycanı beynəlxalq texnologiya və startap müsabiqələrində təmsil edərək ölkəmizi qlobal arenada birinci yerə çıxarıb, müxtəlif beynəlxalq çempionatların qalibi olub.

Eyni zamanda, ölkədə ilk süni intellekt üzrə tədqiqat xidmətləri təklif edən "AI HUB"ın həmtəsisçisidir. KAIST Universitetinin "Scalable Computer Vision Lab" laboratoriyasında çalışıb. Bir sıra elmi məqalələrin həmmüəllifi olan Nihat Abdullayev həm də uşaqlar üçün süni intellekt ilə işləyən ağıllı oyuncaq - "Samsam" startap layihəsinin həmtəsisçisi və texnologiya direktorudur.

**Tural NƏSİROV,**
*Şirvan-Salyan və Mil-Muğan üzrə regional təmsilçi*